**UOT 82.0. 091**
**https://doi.org/10.59849/2218-4783.2026.1.192**

# KEÇİD DÖVRÜ AZƏRBAYCAN İCTİMAİ-ƏDƏBİ FİKRİNDƏ İDEOLOJİ MEYARLARIN MÜƏYYƏNLƏŞMƏSİNDƏ ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN ROLU

# THE ROLE OF THE GREAT LEADER HEYDAR ALIYEV IN DETERMINING IDEOLOGICAL CRITERIA IN AZERBAIJANI SOCIAL AND LITERARY THOUGHT DURING THE TRANSITIONAL PERIOD

**Ramiz QASIMOV***

## XÜLASƏ

Sovet İttifaqının dağılması, dövlət müstəqilliyinin bərpası və sosializmdən bazar iqtisadiyyatına keçid dönəmi Azərbaycanda keçid dövrü olaraq səciyyələndirilir. Əsasən, 1990-1995-ci illəri əhatə edən bu dövrdə köhnə dəyərlər, düşüncə tərzi, meyarlar, yaşayış qaydaları və s. qüvvədən düşdüyündən müxtəlif sahələrdə, o cümlədən mənəviyyatda, yaşayış qaydalarında, yaradıcılıq sahələrində, sənətdə və s. böhranla müşayiət olunur. Bu, özünü ədəbiyyatda, ədəbi tənqid və müxtəlif sənət, yaradıcılıq sahələrində də aydın göstərir. Heydər Əliyevin həmin çətin dövrdə Azərbaycana qayıdışı onun fəaliyyəti və fikirləri üzərində yeni ideoloji meyarların formalaşması ilə nəticələnir. Azərbaycan Xalqının Ümummilli Lideri Heydər Əliyev ədəbiyyata hər zaman qayğı ilə yanaşmışdır. Çoxəsrlik Azərbaycan ədəbiyyatı da Ulu Öndər Heydər Əliyev tərəfindən məhz bu milli ideologiyanın həm mənəvi qaynağı, ideoloji zəmini, mənbəyi kimi qəbul edilmiş, qiymətləndirilmişdir. Müdrik lider ədəbiyyata həm də milli ideologiyanın mənbəyi kimi yanaşaraq məhz müdrik kəlamları daxilində Azərbaycançılığın dəyişilməz maddələri kimi təqdim etmişdir. Ümummilli Liderin təbirincə milli ədəbiyyat: 1. Milli tarixi keçmiş və yaddaş; 2. Milli düşüncə, dəyərlər və ideyaların təcəssüm tapdığı mənəvi xəzinə; 3. İnsanları tərbiyə vasitəsi; 4. Diplomatik-siyasi təbliğat və münasibətlərin bir qolu kimi dəyərləndirilmişdir. Buna görə də milli ədəbiyyata bağlılıq və onun mütaliəsi vətəndaşlıq tərbiyəsində mühüm vasitə olaraq göstərilmişdir. Ümumiyyətlə, öz fəaliyyəti dönəmində Azərbaycan ədəbiyyatını bütün ehtivası ilə – şifahi xalq ədəbiyyatı, klassik irs və onun görkəmli nümayəndələri, müasir ədəbi proses və onun simaları ilə qayğısı altına almışdır. Ulu Öndər Heydər Əliyev ədəbiyyata ilk növbədə vətəndaş-insanın milli-tarixi yaddaş etibarilə tərbiyə vasitəsi kimi baxırdı və qayğı göstərirdi. Ədəbiyyatın tərbiyəvi xüsusiyyəti xalqın ümummilli dəyərləri, həyat və düşüncə tərzi, vətəndaşlıq idealları və ideyaları baxımından tərbiyə edilməsində başlıca vasitəyə çevrilmişdir. Azərbaycan xalqının türkçülük ideyaları və əməli fəaliyyəti də ədəbiyyatımızın və ədəbi simalarımızın vasitəçiliyi ilə uğurla həyata keçirilmişdir. Ə.Hüseynzadə, Ə.Ağaoğlu, M.Rəsulzadə, H.Cavid, Ə.Cavad və başqalarının keçirilən yubileyləri və müxtəlif tədbirlər vasitəsilə türk dünyasının birliyi və qardaşlığı ideyası təbliğ edilmişdir. Ölkəmizin xaricdə, beynəlxalq aləmdə tanınması və təbliği də məhz Xaqani Şirvani, Məhsəti Gəncəvi, Nizami Gəncəvi, İmadəddin Nəsimi, Məhəmməd Füzuli, Hüseyn Cavid, Cəlil Məmmədquluzadə, Mirzə Ələkbər Sabir və b. görkəmli şəxsiyyətlərin siması və yaradıcılığı sayəsində reallaşdırılmışdır.

**Açar sözlər**: *Heydər Əliyev, ədəbiyyat siyasəti, milli ideologiya, ədəbi-tənqidi fikir.*

## ABSTRACT

The collapse of the Soviet Union, the restoration of state independence and the transition from socialism to a market economy are characterized as a transitional period in Azerbaijan. During this period, that mainly covers the years 1990-1995, old values and ways of thinking, criteria and rules of life lost their force, giving rise to a crisis in various spheres, including spirituality, daily life, creative fields and art. This crisis is clearly manifested in literature, literary criticism and various artistic and creative domains. Heydar Aliyev's return to Azerbaijan during that difficult period led to the formation of new ideological criteria grounded in his activities and ideas. The National Leader of the Azerbaijani people always treated literature with care. Centuries-old Azerbaijani literature was accepted and evaluated by Heydar Aliyev as both the spiritual source and the ideological foundation of national ideology. The wise leader

*AMEA Naxçıvan Bölməsi, E-mail: ramizqasimli44@gmail.com,
ORCİD: 0000-0001-9905-4348.

approached literature as a source of national ideology and presented it as an immutable component of Azerbaijaniism within his wise pronouncements. According to the National Leader, national literature represents: (1) the national historical past and memory; (2) a spiritual treasury in which national thought, values and ideas are embodied; (3) a means of educating the people; and (4) a branch of diplomatic-political propaganda and relations. Therefore, attachment to national literature and its reading have been shown as an important means of civic education. Throughout his activity, he took Azerbaijani literature under his protection in all its aspects – oral folk literature, the classical heritage and its prominent representatives, the modern literary process and its figures. Heydar Aliyev viewed literature primarily as a means of educating the citizen-person with regard to national-historical memory. The educational nature of literature became the main instrument for educating the people in terms of national values, way of life and thinking, civic ideals and ideas. The ideas of Turkism and the practical activity of the Azerbaijani people were also successfully implemented through literature and literary figures. The idea of the unity and brotherhood of the Turkic world was promoted through anniversaries and various events dedicated to A.Huseynzade, A.Aghaoğlu, M.Rasulzade, H.Javid, A.Javad and others. The recognition and promotion of the country abroad in the international arena were achieved precisely through the figures and creativity of prominent personalities such as Khagani Shirvani, Mahsati Ganjavi, Nizami Ganjavi, Imaded-din Nasimi, Muhammad Fuzuli, Huseyn Javid, Jalil Mammadguluzade, Mirza Alakbar Sabir and others.

**Keywords:** *Heydar Aliyev, literary policy, national ideology, literary-critical thought.*

## GİRİŞ

Azərbaycan xalqının milli ideologiyasının banisi Heydər Əliyevin ideyaları keçid dövründə ictimai-ədəbi fikirdə yaşanan böhrandan çıxılması və yeni meyarların müəyyənləşməsində böyük rol oynamışdır. Yeni ictimai-tarixi şəraitə və formasiyaya keçidlə əlaqədar olaraq köhnə dəyərlərin əhəmiyyətdən düşməsi böhranla nəticələnmiş, yeni ideoloji mühitin formalaşmasında Heydər Əliyev özünün ölməz, dahiyanə fikirləri ilə müstəsna rol oynamışdır. Bu baxımdan nə qədər müddət keçməsinə baxmayaraq Heydər Əliyev ideyalarının Azərbaycanda yeni ictimai-ədəbi düşüncə meyarlarının formalaşmasındakı müstəsna yeri və rolunun öyrənilməsi bütün zamanlar üçün aktuallıq təşkil edir. Ədəbiyyatda və ədəbiyyatşünaslıqda yeni təhlil və təsvir metod və meyarlarının yaranmasında Heydər Əliyev fikirlərinin əhəmiyyətini ayrılıqda öyrənmək və müəyyənləşdirmək tədqiqatın aktuallığını şərtləndirir və əhəmiyyətini müəyyənləşdirir.

Tədqiqat işində təhlil və təsvir, sinxron, müqayisəli təhlil, tənqidi realizm, deduktiv və induktiv və başqa metod və üsullardan istifadə edilərək təhlillər aparılmış, qənaət və nəticələr əldə edilmişdir.

## KEÇİD DÖVRÜNDƏ MEYARSIZLIQ VƏ BÖHRAN ŞƏRAİTİNDƏ YENİ MEYARLARIN FORMALAŞMASINDA HEYDƏR ƏLİYEV İDEYALARININ MÜƏYYƏNLƏŞDİRİCİ ROLU

Yaxşı məlumdur ki, hər bir elmin inkişafı mövcud olan müəyyən əsaslar, meyarlar üzərində mümkün ola bilir. Bu fikri daha çox ictimai-humanitar elmlərə şamil etmək lazımdır ki, burada subyektivlik obyektivlik amilindən irəli gedir və mütləq müəyyən elmi əsaslara, meyarlara dayanması vacib şərtə çevrilir. Azərbaycanda Sovet hakimiyyətinin qurulmasından sonra Azərbaycan ədəbiyyatı və ədəbiyyatşünaslığı üçün müəyyənləşdirilmiş konkret elmi-ədəbi, o cümlədən bədii-ideoloji meyarlar həm ədəbiyyatın, həm də ədəbiyyatşünaslığın inkişaf yolunu dəqiq şəkildə cızmış, konkret yol, istiqamət, məcra müəyyən etmişdi. Daha dəqiqi və acısı bu idi ki, yeni meyarlar Azərbaycan ediblərinə milli varlıqdan yazma dəyərləri əks etdirməyi köhnəlik kimi qiymətləndirərək milli kökdən uzaq salmağa cəhd göstərir, ədəbiyyatşünaslıq elmini də özünün müəyyən etdiyi sovet ideologiyası tələblərinə uyğun meyarlarla təhlil etməyə və yanaşmağa məcbur edib əsl milli ədəbiyyatı təhrif edirdi. Bu mənada qeyd edilməlidir ki, Azərbaycan ədəbiyyatı və ədəbiyyatşünaslıq elminin milli köklərə bağlılıq üzərində inkişafına nail olunması tarixi məhz Ulu Öndər Heydər Əliyevin siyasi hakimiyyətə gəlməsi dövrünə təsadüf edir. Ədəbiyyatda milli ideyalardan yazılması yasaq edildiyi, dəyərlərdən, adət-ənənələrdən, folklordan bəhs olunması köhnəlik, sovet ədəbiyyatına zidd və zərərli hesab edildiyi zamanlarda, Dədə Qorqud kimi milli dastandan, digər folklor örnəklərin-

dən, Nizami Gəncəvi, Məhəmməd Füzuli, İmadəddin Nəsimi, Şah İsmayıl Xətayi və başqa görkəmli klassik ədiblərin ədəbi ənənələrindən bəhs edilməsi əsl milli konsepsiyanı müəyyənləşdirmiş oldu. Ümumiyyətlə, keçid dövründə başlıca zərərli və təhlükəli stereotiplər onlardan ibarət idi ki: 1. Xüsusilə, sovet dövrü yaranmış və yaşanmış bütün milli-mədəni irsə qarşı şübhəçilik hökm sürür və qəbul edilməsi mümkünsüz hesab edilirdi; 2. Ayrı-ayrı şəxsiyyətlərin fəaliyyətləri və görüşləri zərərli hesab edilərək ortadan qaldırılmasına çalışılırdı; 3. Sovet dövrü yaşananlarla Azərbaycan Xalq Cümhuriyyəti zamanı yaşananalar ciddi müqayisə edilərək AXC dönəmi və şəxsiyyətləri birmənalı təqdir edilir, sovet dövrü yaşananlar və şəxsiyyətlər isə tənqidi və zərərli qarşılanırdı; 4. Ən əsası isə, ictimai düşüncədə yeni tənqidi meyarlar mövcud deyildi və xeyirli olanla zərərli olanı müəyyənləşdirmək ictimai baxımdan mümkün görünmürdü və s. Məhz belə çətin və təhlükəli şəraitdə yeni ictimai meyar və dəyərlərin meydana gəlməsi olduqca ciddi bir ehtiyac təşkil edirdi.

Bunu da əlavə etmək lazımdır ki, sovet imperiyasının çöküb milli azadlıqların elan edildiyi 1988-1993 illərdə və sonrakı dövrlərdə də milli ədəbiyyata birtərəfli yanaşma kimi təhlükəli hallardan məhz dahi liderin hakimiyyətə gəlişi sayəsində milli tarixə, ədəbiyyata özünün sədaqətli yanaşma istiqaməti ilə yeni ruh bəxş etdi və milli konsepsiya müəyyənləşdirməyə müvəffəq oldu. Hələ konkret elmi yanaşmanın olmadığı belə vaxtlarda Sovet dövrü ədəbiyyatına və ədiblərinə birmənalı baxışların olmaması, daha sərt formada tənqid edilməsi və milli ədəbiyyata daxil edilməməsi kimi yanlış fikirlər təhlükəli stereotiplər formalaşdırmağa yol açırdı. Halbuki Ulu Öndər Heydər Əliyevin də dediyi kimi, *"buna görə heç kimi günahlandırmaq lazım deyildir. Bu, o dövrün nəticəsidir və indi heç kəs deməsin ki, o zaman belə düşünməmişdir. Biz hamımız həmin dövrdə yaşayır və onun stereotiplərindən kənara çıxa bilmirdik. Çıxmağa imkan da yox idi, çünki o dövrdə yazıçı da, alim də, adi adam da belə hesab edirdi ki, başqa cür ola bilməz. ...O dövrdə yaşayan və Azərbaycanın mədəniyyətini, ədəbiyyatını inkişaf etdirən adamlara indi irad tutmaq olmaz, bu, günahdır"* [Heydər Əliyev və Azərbaycan ədəbiyyatı, 1989, s. 60] – deyə Ulu Öndər həm köhnə stereotiplərlə kimisə günahlandırmağa son qoymağın, həm də yeni məzmunda düşünməyin artıq ictimai ehtiyac olduğunu bildirirdi.

## HEYDƏR ƏLİYEVİN ƏDƏBİYYAT SİYASƏTİ VƏ YENİ ƏDƏBİ MEYARLAR

1990-cı illərdə baş verən ciddi ictimai, siyasi və iqtisadi dəyişikliklər köhnə meyarların əsaslarını sarsıtmış, yeni tələblər çərçivəsində meyarlar müəyyənləşdirmə zərurətini ortaya çıxarmışdı. Bu meyarların müəyyənləşməsi, sözsüz ki, o qədər asan və tez başa gələn deyildi. Hələ baş verənlərin mahiyyətini, inkişaf istiqamətini və gələcəyini tamamilə bilməyən müəyyən sahə adamları üçün belə meyarlar müəyyənləşdirmək heç də asan görünmürdü. Hər şeydən əvvəl yeni inkişafın istiqamətini, məzmununu və mahiyyətini bilməyə, milli dəyərlərə, ideyalara uyğunlaşdırmağa geniş zəka, konkret bilik və uzaqgörənlik lazım idi. Belə missiyanı Azərbaycan xalqının milli ideologiyasının banisi Ulu Öndər Heydər Əliyev yenə də özünün uzaqgörən, dərin və dəyərli fikirlərilə daşımağa müvəffəq oldu. Dahi şəxsiyyətin müxtəlif sahələrlə bağlı fərqli vaxtlarda dediyi fikirlər yeni şəraitdə konkret sahələrin inkişafı üçün stimul və elmi-ideoloji istiqamət verdi. Müxtəlif zamanlarda Ulu Öndərin ayrı-ayrı sahələr, hətta ayrı-ayrı adamlar haqqında dediyi fikirlər bir elm sahəsinin konkret elmi meyarlarının nüvəsində dayanan əsaslar yaratdı. Dahi rəhbərin fəaliyyəti müstəqilliyini yenicə bərpa etmiş, bir ictimai-iqtisadi formasiyadan başqa bir formasiyaya keçid edən ölkə üçün yeni fəaliyyət istiqamətləri müəyyənləşdirdiyi kimi, fikir və münasibətləri də ideoloji baxımdan yeni və doğru istiqamətlərin müəyyənləşməsi üçün meyara çevrildi. Ulu Öndər Heydər Əliyevin "Kitabi-Dədə Qorqud" dastanının 1300 illik yubileyinin keçirilməsi haqqındakı sərəncamı, yubiley mərasimindəki çıxışı və habelə "Kitabi-Dədə Qorqud" Ensiklopediyasının ön sözünə yazdığı fikirlər bütövlükdə xalqımızın mənəvi sərvətlərinə, onun dəyərləri, abidələri, tarixi, mədəniyyəti və ədəbiyyatına və sair konkret münasibət tərzi və məzmununu müəyyən etdi. Dahi liderin: *"Bizim zəngin*

*tariximiz, qədim mədəniyyətimiz və milli-mənəvi dəyərlərimiz "Kitabi-Dədə Qorqud" eposunda öz əksini tapmışdır. ...Bu, bizim ana kitabımızdır və gənclik bu kitabı nə qədər dərindən bilsə, millətini, xalqını, vətənini, müstəqil Azərbaycanı bir o qədər çox sevəcəkdir. ..."Kitabi-Dədə Qorqud" qəhrəmanlıq eposudur, özü də bir cəngavər, bir igid haqqında yox, bütöv bir xalqın qəhrəmanlığını özündə cəmləşdirən bir eposdur. Onun ən böyük ideyası baş sərkərdədən tutmuş böyükdən kiçiyə kimi bütün qəhrəmanlarının doğma torpaqlarını qorumaq uğrunda canlarından keçməyə daim hazır olduqlarını göstərməkdir. Eposun əsas ideyasını qəhrəmanlıq ideologiyası təşkil edir. ..."Kitabi-Dədə Qorqud" həm də bizim etika kitabımız, əxlaq kodeksimizdir. Böyüyə hörmət, ata-anaya məhəbbət, iman və etiqad, namus və qeyrət, ailəyə, torpağa, vətənə sədaqət – bu insani keyfiyyətlər, mənəvi məziyyətlər Qorqud övladlarının qanına ana südü ilə, ata nəfəsi ilə birlikdə daxil olur və son mənzilə qədər də onlarla birlikdə gedir. Dədə Qorqud dünyasındakı milli dəyərlər, stereotiplər ...əslində hər bir azərbaycanlının varlığının ayrılmaz hissəsidir"* ["Kitabi-Dədə Qorqud" Ensiklopediyası, 2000, s. 6] – deyə ifadə etdiyi fikirlər həm qorqudşünaslıq kimi yeni bir sahənin elmi əsasını müəyyənləşdirir, həm də bütövlükdə Azərbaycan şifahi xalq ədəbiyyatına, bütün mənəvi sərvətlərinə yeni baxış tərzini müəyyənləşdirirdi. Belə ki, dahi lider Heydər Əliyevin "Dədə Qorqud kitabı"na olan bu münasibəti bir tərəfdən xalqın yaratdığı milli sərvətə, onun folkloruna söykəli bir inkişaf istiqaməti müəyyən edirdi, bu vəsilə ilə həmçinin ictimai düşüncədə xalqın milli düşüncəsinin müəyyənləşdirici meyar xüsusiyyətini ifadə edirdi, həmçinin Azərbaycan xalqının folkloruna ümumtürk ədəbi düşüncəsi və irsi olaraq yanaşmaqla türk xalqlarının bir-birinə yanaşması və təşkilati fəaliyyətin vacib bir istiqaməti kimi əhəmiyyətli yolunu müəyyənləşdirirdi. Ulu Öndər bu kimi tədbirlər vasitəsilə türk xalqlarının təşkilatlanması işinə özünün misilsiz töhfələrini verirdi. Azərbaycan Respublikasının bu gün türk dünyasının təşkilatlanması sahəsində oynadığı əhəmiyyətli rolun mənbəyində məhz Heydər Əliyevin misilsiz xidmətləri dayanmışdır.

Ulu Öndər Heydər Əliyev sovet dövründə yaşamış və fəaliyyəti o quruluşla bağlı olan şəxsiyyətlərə yanaşma məsələsində də özünün humanizmi, milli mövqeyi və obyektiv meyarını göstərirdi. Keçid dövrü mərhələsində (hətta bu gün də!) M.Kazımbəy, M.F.Axundzadə, C.Məmmədquluzadə, C.Cabbarlı, N.Nərimanov və başqa şəxsiyyətlərə birmənalı olaraq inkaredici tənqidi baxışın hökm sürməsi, müstəqillik epoxasına uyğun olaraq Ə.Hüseynzadə, Ə.Ağaoğlu, H.Cavid, M.Rəsulzadə və başqa şəxsiyyətlərin birmənalı tərifə tutulması kimi təhlükəli stereotiplərin ortadan qaldırılması məsələsində də dahi lider H.Əliyevin fikir və görüşləri müstəsna rol oynamışdır. Dahi lider Heydər Əliyev hər bir şəxsiyyətin fəaliyyətinə haqla yanaşır, xidmətlərinə kölgə salmadan münasibət bəsləməklə bir meyar, tərz nümayiş etdirirdi. Ulu Öndər ifadə etdiyi fikirlərdə o dərəcədə peşəkarlıq, kamillik, səriştə və bilik nümayiş etdirirdi ki, həmin sahənin konkret biliciləri belə dahi liderdən öyrənməyə borclu olurdular. Təsadüfi deyilməyib ki, Ulu Öndər Heydər Əliyev *"Mustafa bəy Topçubaşovdan danışanda mütəxəssis həkimdən, Yusif Məmmədəliyevdən danışanda peşəkar kimyaçıdan, Hüseyn Caviddən danışanda filoloqdan və sənətşünasdan daha miqyaslı və ixtisaslı qiymətlər verir. Çünki böyük fərdlər, çeşidcə müxtəlif, lakin miqyasca eyni olan, istedadda və intellektdə bir-birinə yaxın fərdlər bərabər səviyyədən bir-birini daha yaxşı (yaxından!) görür və bir-birinə daha dəqiq təhlillər verirlər"* [Heydər Əliyev və Azərbaycan ədəbiyyatı, 1998, s. 130]. Bu mənada Ulu Öndər Heydər Əliyevin vaxtilə görkəmli ictimai xadim, ədib Nəriman Nərimanov haqqında dediyi fikirlər də təkcə Nərimanov əleyhinə aparılan elmi-ictimai kampaniyalara qarşı deyil, həm də sovet dövründə yaşamış və fəaliyyəti sovet ideologiyası ilə yaxından və uzaqdan bağlı olan başqa görkəmli şəxsiyyətlərə qarşı yönəldilmiş fikir və stereotiplərə qarşı tutarlı cavab olmaqla bərabər, milli münasibətin formalaşmasını da müəyyənləşdirirdi. Bu fikirlər işığında vaxtilə görkəmli azərbaycançı ədib, ictimai xadim, publisist Cəlil Məmmədquluzadəyə qarşı edilən gərəksiz ittihamları da başa düşməyə, onun guya xalqımızı öz yaradıcılığında aşağıladığı və tənqid etdiyi haqqında fikirlərin əsassızlığını anlamağa imkan verir. Mirzə Fətəli Axundzadənin, Abbasqulu ağa Bakıxanovun, Mirzə Kazımbəyin və onlarla ziyalı, ədib, görkəmli adamlarımızın vaxtilə çar Rusi-

yası və Sovet İttifaqında fəaliyyət göstərmələrinə tətbiq edilən birtərəfli yanaşma, təhlil tərzi məhz Ulu Öndərimizin fikirləri işığında özünə bəraət ala bilmiş, milli aspektdən, düzgün yanaşma istiqamətində yanaşmaya qovuşmuşdur.

## ƏDƏBİ ŞƏXSİYYƏTLƏRƏ HEYDƏR ƏLİYEV YANAŞMASININ NÜMUNƏVİLİYİ

Ölkəmiz dövlət müstəqilliyini bərpa etməsinə baxmayaraq, keçid dövründə ən mühüm ictimai düşüncədə yer alan problemlərdən biri məhz xalqın milli sərvətini və onun taleyində mühüm rol oynamış şəxsiyyətlərə müsbət təəssüratların itməsi və tənqidi yanaşmanın olması idi. Xalqın inkişafı yolunda bütün şüurlu həyatını həsr etmiş şəxsiyyətlərə qarşı inkaredici düşüncənin olması milli tənqidi meyarları təhdid edən ciddi fakt olaraq ortaya çıxır və xalqın inkişafına zərər verirdi. Belə şəxsiyyətlər arasında C.Məmmədquluzadə, N.Nərimanov, C.Cabbarlı, o cümlədən M.Kazımbəy, M.F.Axundzadə və başqaları birinci sırada dayanırdı. Bütün yaradıcılığı ilə ədəbi və ictimai fikrimizdə azərbaycançılıq məfkurəsinin əsasını qoymuş, öz fəaliyyətində daim vətənə xidməti həyat fəlsəfəsinə çevirmiş, xalqımızı dünyaca məşhurlaşdırmağa layiq istedadı, fəaliyyəti ilə əbədiyyət qazanmış görkəmli ədib Cəlil Məmmədquluzadə haqqında da fərqli fikirlər təzahür edir, qərar tuturdu. Sözsüz ki, belə müxalif fikirlərin olması ədəbi həqiqəti ifadə etməsə də, özündə müəyyən subyektiv fikirlər, qərəzli münasibətlər və birtərəfli yanaşmalar daşımaqda idi. Belə yanaşmaların yaranmasında bir tərəfdən də görkəmli elm adamı akademik İsa Həbibbəylinin fikirlərilə desək, ədəbiyyatda *"tənqidi realizmin mahiyyətini bilməmək"*dən irəli gəlir [Həbibbəyli, 2007, 5 oktyabr]. Bu baxımdan ədəbiyyatşünaslığımızda, habelə mirzəcəlilşünaslıqda sağlam ədəbi meyarların əmələ gəlməsində Ulu Öndərin böyük ədib haqqında dediyi fikirlər və xatirəsinin əbədiləşdirilməsi istiqamətində gördüyü tədbirlər xüsusi əhəmiyyət daşıyır. Xüsusilə də, 90-cı illərdə dahi Heydər Əliyev Naxçıvanın çətin ictimai-siyasi, iqtisadi bir dönəmində mədəni sərvətin qorunması istiqamətində əvəzsiz işlər görürdü. 1999-cu ildə Naxçıvan şəhərində Cəlil Məmmədquluzadənin ev muzeyinin yaradılması istiqamətində görülən işlər və C.Məmmədquluzadə haqqında deyilən dahiyanə fikirlər bu görkəmli şəxsiyyətə qarşı qərəzli, aşırı, haqq edilməyən münasibətin ortadan qalxmasına əsas oldu. Ulu Öndər sanki mövcud qərəzli birtərəfli yanaşmaları sarsıdaraq ədəbiyyatşünaslıq və fəlsəfi baxımdan həm görkəmli ustad yazıçı Cəlil Məmmədquluzadə haqqında, həm də bütün tənqidi realist ədiblər barəsində birmənalı milli ədəbi – fəlsəfi baxış tərzini müəyyənləşdirdi. Dahi liderin ustad sənətkar haqqında: *"Cəlil Məmmədquluzadə Azərbaycan tarixində görkəmli yer tutmuş dahi insan, yazıçı, publisist, filosof, mütəfəkkir, xalqımızın mədəniyyətini çox zənginləşdirmiş bir şəxsiyyətdir. O, ədəbiyyatımızın, mədəniyyətimizin klassikidir. Eyni zamanda o, bizim müasirimizdir, o, bu gün də bizimlədir, bizim sıralarımızdadır. Bizimlə bərabər Azərbaycanın müstəqilliyinə sevinir və bizimlə bərabər Azərbaycan Respublikasının daim müstəqil dövlət olması uğrunda öz yaradıcılığı ilə, qoyduğu mənəvi irslə çalışmaqdadır"* [1, s. 102], – deyə ifadə etdiyi fikirlər bütöv bir elmi yanaşma tərzi və meyarını özündə əks etdirməklə mükəmməl elmi konsepsiya yaratdı. Dahi lider qeyd edilən mərasimdə çıxış edərkən C.Məmmədquluzadənin ədəbi fəaliyyətini xarakterizə edərək bu münasibəti qəti olaraq göstərirdi ki: *"Əgər Cəlil Məmmədquluzadə kimi şəxsiyyət dünyaya gəlməsəydi, öz fəaliyyətini göstərməsəydi, əgər "Molla Nəsrəddin" jurnalı yatmış insanları qaranlıqdan çıxarmağa çalışmasaydı, əgər onun "Ölülər" əsəri insanların gözünü real dünyaya açmasaydı xalqımız bu qədər inkişaf edə bilməzdi. Bu sözlər təkcə Cəlil Məmmədquluzadəyə aid deyil, bizim çox dahilərimizə aiddir"* [Heydər Əliyevin nitqi, 1999]. Diqqət edilsə, dahi rəhbər həm ustad Cəlil Məmmədquluzadə haqqında, həm də böyük klassiklər olan Nizami Gəncəvi, Məhəmməd Füzuli, Nəsimi, Xətayi və başqaları barəsində danışarkən onları təkcə ədib, şair, yazıçı kimi deyil, həm də bir filosof olaraq da təqdim edir, tədqiqatların istiqamətini məhz bu məcrada aparılması konsepsiyasını göstərirdi. *"...Cəlil Məmmədquluzadə öz yaradıcılığı ilə Azərbaycanın ictimai-siyasi həyatının inkişafında, milli ruhun yüksəlməsində böyük rol oynamışdır. XX əsrin əvvəlində*

*fəaliyyətə başlayan Cəlil Məmmədquluzadə bu gün ...bizim üçün mənəviyyat mənbəyidir, mənəvi dayaqdır"* [Elektron sənədlər toplusu, 2008], – deyə Azərbaycan Xalqının Ümummilli Lideri Heydər Əliyev fikirlərini ifadə edəndə bu görkəmli sənətkarların yaradıcılığını milli ideologiyamızın mənbələri kimi təqdim edirdi.

Həmçinin dahi şəxsiyyət Heydər Əliyev həmin çətin, böhranlı illərdə bütün çətinliklərə baxmayaraq, xüsusi münasibət göstərdiyi və hörmət, ehtiram təlqin etdiyi digər şəxsiyyət böyük romantik sənətkar Hüseyn Cavid idi. Uzun illər haqqında mənfi stereotipdən başqa heç bir sözün deyilmədiyi Hüseyn Cavidə qarşı birmənalı bəzəkli, süslü sözlərin deyilməsi də əslində heç bir tənqidi meyar formalaşdırmırdı. Elmi əsaslardan uzaq, sadəcə bəzəkli təriflər kimi səciyyələnən bu cür münasibətlərin yerində Heydər Əliyevin müdrikanə fikirləri əsl yanaşma meyarı müəyyənləşdirmiş oldu. Heydər Əliyevin çətin illərdə ilk gördüyü işlərdən biri məhz Hüseyn Cavidin əsərlərinin yenidən nəşri və təbliği məsələləri, eləcə də məzarüstü abidəsinin və ev-muzeyinin açılması işi oldu. Bu fəaliyyət və Cavid haqqında deyilmiş sözlərin onun fikir dühası olaraq Azərbaycan xalqının mənəvi mədəniyyəti və düşüncəsində oynadığı rolu və tutduğu yeri daha dəqiq müəyyən etmiş oldu. Müdrik lider Heydər Əliyevin böyük şair Hüseyn Cavidlə bağlı dediyi fikirləri də ədəbiyyatşünaslıq elmimiz üçün olduqca əhəmiyyətlidir. Ulu Öndərimizin böyük sənətkar Hüseyn Cavidə bəslədiyi sevgi və məhəbbət bir tərəfdən yaradıcılığı məhəbbət və barış idealı doğuran humanist sənətkara insani sevginin ifadəsi idisə, digər tərəfdən mənsub olduğu millətinin yetirdiyi görkəmli övlada qürurla bağlılıq və iftixar nümunəsi idi. Özünün lider kimi məna dolu fikirlərilə də ulu öndər Heydər Əliyev yeni dəyərlər istiqamətində formalaşmaqda olan müstəqil Azərbaycanın ədəbiyyatşünaslıq elminə milli konseptual istiqamət, yanaşma tərzi bəxş edirdi. Dahi liderin fikirləri o dərəcədə əhatəli, dolğun və konkret olurdu ki, bu fikirlər elmi meyara çevrilməkdə heç bir çətinlik yaşamır, əksinə, ətraflı və məzmunlu elmi baxış tərzinin müəyyənləşməsi üçün zəruri mənbəyə çevrilirdi. Ulu Öndər əgər deyirdisə ki: *"Hüseyn Cavid XX əsrdə Azərbaycan ədəbiyyatının, mədəniyyətinin, bütün türk dünyasının ən görkəmli bir simasıdır, təkrarolunmaz bir şəxsiyyətdir, bir şairdir və yazıçıdır. Onun yaratdığı əsərlər böyük çətinliklərdən keçərək indi artıq hamımız üçün dərslik olubdur və dərslik olmalıdır"* ["Naxçıvan" jurnalı, 2007, s. 18] və yaxud: *"İndi Hüseyn Cavidin əsərləri xalqa hava-su kimi lazımdır. Təkcə ədəbi baxımdan deyil, həm də fəlsəfi, elmi baxımdan lazımdır... Hüseyn Cavidi Şərqin Şekspiri adlandırırlar. Ancaq onu, bəlkə də, Höte ilə müqayisə etmək düzgün olardı. Əsərlərindəki fəlsəfi fikirlərinə görə, ola bilsin, Cavidin "İblis" əsəri heç də Hötenin "Faust"undan geri qalmır"* [Əliyev, 1999, s. 188], həm görkəmli filosof, şair Hüseyn Cavid yaradıcılığına ədəbi-estetik təhlil, yanaşma metodunu təsbit edir, onun Azərbaycan və dünya ədəbiyyatındakı yerini, mövqeyini müəyyənləşdirir, həm də bütövlükdə Azərbaycan romantizminə yanaşma metodu və tərzini də ədəbi cəhətdən müəyyən etmiş olurdu.

Ümumiyyətlə, qeyd edilməlidir ki, ayrı-ayrı görkəmli adamlarımızın Azərbaycan xalqının mənəvi sərvətləri içərisində yerini və mövqeyini müəyyənləşdirmək baxımından dahi şəxsiyyət Heydər Əliyevin fikirləri müstəsna əhəmiyyətə malik idi. Ulu öndər: *"Biz Nizamidən, Füzulidən danışarkən onları tək şair kimi deyil, böyük filosof kimi, dünyaya, dünya mədəniyyətinə töhfələr vermiş mütəfəkkirlər kimi tanıtmalıyıq"* [Heydər Əliyev və Azərbaycan ədəbiyyatı, 1998, s. 52] – deyə bildirirdisə, klassik ədəbiyyatımızın bu və bu kimi görkəmli adamlarına həm şair kimi, həm fikirlərindəki dünya, insan, şüur, kosmos və s. haqqındakı dəyərli məsələlərə görə filosof kimi yanaşmağı, qiymətləndirməyi vacib bilirdi, eyni zamanda Azərbaycan xalqının bu görkəmli adamlarının öz yaradıcılıqları ilə həm də dünya mədəniyyətini zənginləşdirdiklərini ortaya qoymaqla onların dünya mədəniyyətindəki yerini diqqətə çatdırırdı. Bu baxımdan Ulu Öndərin Nizami, Nəsimi, Füzuli, Xətayi, Vaqif, Mirzə Cəlil, Cavid və başqaları haqqındakı fikirlərində şəxsiyyətlərə həm filosof kimi yanaşma meyli özünü aydın ifadə edirdi, həm də dünyaca şöhrətlərinə və yerinə də diqqət çəkmiş olurdu. Ulu Öndər milli ədəbiyyatımızı həm də ümumtürk kontekstində öyrənməyin zəruriliyini də ifadə edir, ədəbiyyatşünaslıq elmi üçün materiallara yanaşma tərzinin bu metodunu

da təqdim edirdi. Ulu Öndər Füzuli haqqında bəhs edərkən: *"...ərəblər və farslar Füzulini öz şairləri sayırlar. Türkdilli xalqlar isə belə hesab edirlər ki, o, türkdür. Biz də deyirik ki, Füzuli türk, azərbaycanlıdır. Eyni zamanda bunu türkmən, özbək, qazax, Türkiyədə yaşayan türklər, İraq türkmanları da deyə bilərlər. Qoy Füzuli hamıya məxsus olsun"* [Heydər Əliyev və Azərbaycan ədəbiyyatı, 1998, s. 56] – deyə ifadə edirdisə, Füzulinin simasında görkəmli ədiblərimizi həm ümumşərq kontekstində, həm də ümumtürk, ümumdünya və ümumbəşəri kontekstdə qiymətləndirməyi zəruri bilirdi. Bütövlükdə isə bu yanaşma tərzi Azərbaycan ədəbiyyatına ədəbiyyatşünaslıq baxışlarının elmi konsepsiyası və metodları kimi təsbit tapırdı. Yaşadığımız dövr üçün son dərəcə zəruri olan bu yanaşma üsulu ədəbiyyatımıza vahid məqsədli, milli ideologiyalı, ümumtürk və ümumdünya düşüncəli ədəbi konsepsiya müəyyən edirdi. Məhz bu zəmində inkişaf və klassik ənənələr üzərində davam edən müasir ədəbiyyatşünaslıq elmimiz milli elmimizə, xalqımıza, millətimizə, dövlətimizə, habelə türk dünyası, Şərq aləmi və bütün dünyaya əhəmiyyətli bir elm kimi layiq ola bilər.

Dahi lider Heydər Əliyevin təbirində ədəbiyyat həyatın dərki və ümummilli ruhun ehtivası, inikası kimi qiymətləndirilirdi. Şəxsiyyətin yetişməyi və düşüncəsinin formalaşmasında, habelə insanda vətəndaşlıq duyğuları, vətənpərvərlik hissləri, istiqlaliyyət düşüncəsi və mübarizlik ruhunu formalaşdıran da ədəbiyyat – bədii söz hesab edilir və xüsusi qiymətləndirilirdi. Hətta Heydər Əliyev Xalq şairləri Bəxtiyar Vahabzadəni, Məmməd Arazı, Xəlil Rza Ulutürkü "İstiqlal" ordeni ilə mükafatlandırıb, onları istiqlal şairləri kimi xarakterizə edərkən bu aparıcı keyfiyyəti sənət və ədəbiyyat üçün başlıca xüsusiyyət ifadə etmişdir. Odur ki, ədəbiyyatımızda istiqlaliyyət, azadlıq ruhu da daima yüksək ruhda tutulmuş, milli düşüncə və vətəninə bağlılıq, mübarizlik ideyaları ədəbiyyatımızda əsaslı bir ənənə təşkil etmiş, aparıcı yer almışdır. Bu isə ədəbi tənqidi fikirdə meyarlaşma yaradaraq ədəbiyyata yanaşma müddəasına çevrilmişdir. Məhz bu mübarizlik, işğalla barışmazlıq ruhu ədəbiyyatımızda və ictimai düşüncəmizdə yaşadıldığı üçün barışmazlıq 2020-ci ilin sentyabr ayında yeni siyasi mərhələnin lideri olan Müzəffər Ali Baş Komandan İlham Əliyevin sərkərdəliyi altında "Dəmir yumruq" əməliyyatı xalqın iradəsini ifadə edərək düşməni çox ağır məğlubiyyətə uğradıb, təslimçiliyə məcbur etməklə, əzəli və doğma torpaqlarımızın azadlığı ilə böyük bayram yaratmış oldu.

## NƏTİCƏ

Beləliklə, aparılan tədqiqat işi və təhlillərin sonunda bu nəticələr əldə olunmuşdur:

– 1990-cı illərin ilk əvvəllərində yeni ictimai-iqtisadi quruluş və ictimai-tarixi şəraitə keçidlə əlaqədar Azərbaycanda bütün sahələrlə bərabər ideoloji, o cümlədən ədəbiyyat, sənət və tənqid sahəsində də böhran və meyarsızlıq yaşanmış, düşüncənin inkişafını ləngitməyə vadar etmişdir;

– Ulu Öndər Heydər Əliyevin həmin dövrdə Naxçıvana gəlişi, buradakı dövlətçilik fəaliyyəti və fikirləri mövcud böhranın ortadan qalxması, yeni düşüncə tərzi, yanaşma meyarları və ideoloji əsasların yaranmasına vəsilə olmuşdur;

– Mövcud tarixi-mədəni araşdırmalar və müdrik lider olaraq Heydər Əliyevin Azərbaycan xalqının mənşəyinə türk millətinə mənsubluq baxımından qiymətləndirməsi milli ideoloji yanaşmada türklük və ümumbəşərilik meyarlarını müəyyənləşdirmişdir;

– Milli ideologiyada müəyyənləşən azərbaycançılıq məfkurəsi və türk xalqlarının birliyi ideyası ədəbi-tənqidi fikirdə də müəyyənləşərək ədəbiyyatın bu ruhda pərvazlanmasına imkan yaratmışdır;

– Ana dilinin qorunması, saflığının təmin edilməsi və türk dünyası birliyində layiqli mənbələrdən olması da ədəbi-tənqidi fikrin məhvlərinə çevrilmiş və əhəmiyyətli meyarlardan birini təşkil etmişdir;

– Milli-tarixi inkişaf, görkəmli şəxsiyyətlərin yaradıcılığı və yaratdığı ənənələr milli-mədəni irs olaraq qiymətləndirildiyi kimi, müasir, ən yeni Azərbaycan ədəbi fikri də bu mühüm ənənələrin üzərində inkişaf etmək məqsədini tutmuşdur və s.

## ƏDƏBİYYAT


Əliyev, H. (1997). *Müstəqillik yolu. Seçilmiş fikirlər* (Tərtib edənlər: fizika-riyaziyyat elmləri doktoru Şahlar Əsgərov və fəlsəfə elmləri doktoru Səlahəddin Xəlilov). Azərbaycan Universiteti.

Əliyev, H. (1999). *Ədəbiyyatın yüksək borcu və amalı*. Ozan.

"*Kitabi Dədə Qorqud" Ensiklopediyası*. (2000). (1-ci cild). Yeni Nəşrlər Evi.

Həbibbəyli, İ. (2007). Dahilik divana çəkilməz. *Azərbaycan*, 5 oktyabr.

Qasımov, R. (2017). *Azərbaycan ədəbiyyatında milli düşüncə konsepsiyası və azərbaycançılıq ideologiyası*. Elm və təhsil.

*Heydər Əliyev: həyatı və siyasi fəaliyyəti (məqalələr)*. (2023). Əcəmi.

*Naxçıvan*. (2007). Əcəmi NPB, 16, 248.

*Elektron sənədlər toplusu*. (2008). http://heydaraliyev.preslib.az.

*Naxçıvanda Cəlil Məmmədquluzadənin ev muzeyinin açılış mərasimində Azərbaycan Prezidenti Heydər Əliyevin nitqi*. (1999). http://anl.az/el/emb/C.Memmedquluzqde/pdf/he_nitqler.pdf.



**Daxilolma tarixi: İlk variant 07.01.2026**
**Son variant 30.01.2026**